# YETİŞ, AMANDI

Yaman çoxalıbdı bəlası qardaş,
Qılıncla doğranıb əzası qardaş,
Hüseyn!-Al əllərdən Abbası, qardaş,
Köç edib gedirəm, yetiş, amandı.
Ox dəyən bu sinəm gülzara bənzər,
Cismimə vurublar nə qədər xəncər,
Bir belə qəddarlıq görməyib bəşər,
Köç edib gedirəm, yetiş, amandı.
Hər zaman ələmin aparan oldum,
Getdim, xeymələrdən nigaran oldum,
Su gətirə bilmədim, pərişan oldum.
Köç edib gedirəm, yetiş, amandı.
İstəməzdim halım sənə dağ olsun,
Düşmən sənə gülsün, bu bir lağ olsun,
Üzüldü qollarım. Başın sağ olsun!
Köç edib gedirəm, yetiş, amandı.
Ey əziz qardaşım, sənsən şahikar,
Hər zaman etmişəm sənlə iftixar,
Bir busə ver, qalsın səndən yadigar,
Köç edib gedirəm, yetiş, amandı.

**Rəşad ƏLİZADƏ.**